# Tərtər rayonunun təbii şərait və təbii ehtiyat potensialının coğrafi qiymətləndirilməsi

**Səbinə Kərimli[1]**

https://doi.org/10.5281/zenodo.7297953

**Xülasə**

Məqalədə Tərtər rayonunun təbii şərait və təbii ehtiyatları və onların insanların həyat fəaliyyəti və təsərrüfatın inkişafına təsirləri araşdırılmışdır.Rayonun torpaq sahələrində əkilən bitkilərin strukturu və məhsuldarlığı təhlil edilmişdir. Belə ki, əlverişli torpaq və iqlim ehtiyatları burada taxılçılıq və pambıqçılığın inkişafı üçün əlverişlidir. Həmçinin əvvəllər rayonda üzümçülüyün inkişafından və gələcəkdə inkişaf perspektivlərindən bəhs olunmuşdur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən qəbul olunmuş Dövlət Proqramları təhlil olunmuş, rayonda nə dərəcədə tətbiq olunması, gələcək illərdə də tətbiqi araşdırılmışdır. Rayon ərazisindən axan Tərtərçayın böyük enerji ehtiyatı və suvarma əhəmiyyəti qeyd olunmuşdur. Tərtərçay üzərində tikilmiş Suqovuşan su anbarının işğaldan azad olunmasının rayonun torpaq sahələrinin suvarılmasında əhəmiyyətindən bəhs olunmuşdur. Həmçinin “Suqovuşan – 1” və “Suqovuşan – 2” Kiçik Su Elektrik stansiyalarının yenidənqurulmasının elektrik enerjisinin istehsalında əhəmiyyəti qeyd edilmişdir.

**Açar sözlər:** Təbii şəraitin təsərrüfata təsiri, Təbii ehtiyatlardan istifadə, işğaldan azad olunmuş ərazilərdə “Yaşıl enerji”, Suqovuşan, Tərtərçay

## Geographical assessment of natural conditions and natural reserve potential of Tartar district

**Abstract**

In the article, the natural conditions and natural resources of Tartar region and their effects on people's life activities and economic development were investigated.The structure and productivity of the plants planted in the land areas of the region were analyzed.Thus, favorable land and climate resources are favorable for the development of grain and cotton cultivation here. It was also mentioned earlier about the development of viticulture in the region and its future development prospects.The State Programs adopted according to the Decrees of the President of the Republic of Azerbaijan Ilham Aliyev were analyzed, to what extent they were applied in the region, and their application in future years was investigated. The great energy reserve and irrigation importance of Tartarchay, which flows through the region, has been noted. The importance of liberating the Sugovushan reservoir built on Tartarchay from occupation in irrigating the land areas of the region was discussed. Also, the importance of the reconstruction of "Suguvushan-1" and "Suguvushan-2" Small Hydroelectric Power Stations in the production of electricity was noted.

**Keywords:** Impact of natural conditions on the economy, Use of natural resources, "Green energy" in territories liberated from occupation, Sugovushan, Tartarchay

## Giriş

Hər bir ərazinin təbii şərait və təbii ehtiyatları orada yaşayan insanların həyat fəaliyyətinə və təsərrüfatın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Ərəb səyyahı Aleksandır Duma

[1] Magistrant, Bakı Dövlət Universiteti, sebinekerimli805@gmail.com

vaxtilə Azərbaycanda olmuş və Qarabağı gəzərkən Tərtərin iqliminə, təbiətinə, təbii sərvətlərinə, bitki və heyvanat aləminə heyran qalmış və belə yazmışdır: "Yalnız Tərtəri görməyənlər İsveçrəni görməkləri ilə qürrələnə bilərlər...Bazarda o qədər bolluq var ki, məhsullar demək olar ki, havayı qiymətə satılır...Bağlarda ağacların barına budaqlar tab gətirmir...Tərtərin havası, suyu kimi insanları da pakdır, qonaqpərvərdir..." (Məmmədov, 2017: 30)
Kür – Araz ovalığının qərb hissəsində yerləşən Tərtər rayonunun səthi düzənlikdir və qərbdən şərqə doğru meyillidir. Düzənlikləri Antropogen dövrün çaqıldaşlı – gillicəli çöküntüləri ilə örtülmüşdür. Rayonun faydalı qazıntılarına neft, mineral istisu, tikinti materialları və s. aiddir.
Tərtər neft yatağı rayonun şimal – şərqində, Tərtər çayının sol sahilində yerləşir. Bu sahənin neft – qaz perspektivliyi Paleogen və Mezozoy çöküntüləri ilə əlaqəli olması güman edilir. (Məmmədov, 2017: 30)
Tərtər rayonu qışı quraq keçən mülayim isti, yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temperatur iyulda 25.9 $^0$C, yanvarda -2 $^0$C – dir. İllik yağıntının miqdarı 300 - 500 mm təşkil edir. Rayon ərazisindən Tərtər və İncəçay axır, cənub sərhəddindən isə Xaçın çayı keçir ( Məmmədov, 2017: 31). Tərtər çayı Kürün sağ qolu olub, başlanğıcını Qarabağ vulkanik yaylasında Qonqur, Alagöz və Mıxtökən silsilələrinin birləşməsi nəticəsində yaranan, hündürlüyü 3180 m olan bulaqdan götürür. Əsas qolları soldan Levçay və Ağdabançay, sağdan isə Turağaçay çaylarıdır. Çayın axımının 14 % - i yağış, 28 % - i qar, 58 % - i isə yeraltı sular hesabına formalaşır. Çay hövzəsində orta illik yağıntının miqdarı 691 mm, su sərfi isə 21.9 $m^3/s$ – dir. Çoxsulu illərdə çayın su sərfi 41,6 $m^3/s$ - ə qədər artır, azsulu dövrdə isə 13,4 $m^3/s$ - ə qədər azalır. Uzunluğu 184 metr olub, Kəlbəcər, Tərtər və Bərdə rayonlarının ərazisindən keçərək sağdan 3 metr yüksəkliyində Kür çayına qovuşur. Tərtərçay uzunluğuna görə Azərbaycan ərazisində Kürün sağ qolları içərisində Arzdan sonra ikinci yerdə durur. Çay yuxarı və orta axınında Umudlu çökəkliyi istisna olmaqla, dar, dərin, bəzi yerlərdə isə əsl kanyonvari dərəylə axır. Umudlu çökəkliyində isə çayın dərəsi genişlənir və yamaclarında terraslara rast gəlinir. (Müseyibov, 1998: 183)

**Cədvəl 1. Tərtər rayonun su ehtiyatlarının istifadəsi**

| Göstəricilər | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Təbii mənbələrdən götürülən su, mln. kub m. | 238,9 | 254,7 | 261,2 | 283,5 | 282,2 |
| İstifadə olunan su, mln. kub m. | 177,8 | 182,2 | 182,5 | 181,0 | 222,4 |
| məişət-içməli məqsədlərə | 1,5 | 2,0 | 2,3 | 1,8 | 1,4 |
| İstehsala | - | - | - | - | - |
| suvarmaya və kənd təsərrüfatına | 176,4 | 180,1 | 180,2 | 179,2 | 221,0 |
| Atılan çirkab su, mln. kub m. | 0,8 | 0,3 | 0,3 | 0,4 | 0,6 |
| Nəql edilərkən itən su, mln. kub m. | 61,0 | 72,5 | 78,7 | 102,5 | 47,6 |

Qeyd. Azərbaycan Regionları ,2021. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, statistik məcmuə, səh.314
Cədvəl 1 – dən göründüyü kimi 2020 – ci ildə rayonda təbii mənbələrdən götürülən suyun miqdarı 282.2 milyon kub metr olmuşdur ki, bu da 2016 – cı ilə nisbətən 18 % artım deməkdir. Bu suyun 222.4 milyon kub metri və ya 78.8 % - i istifadə olunmuşdur. İstifadə olunmuş suyun isə 221 milyon kub metri və ya 99.4 % - i suvarma və kənd təsərrüfatına, 0.6 % - i məişət – içməli məqsədlər üçün sərf olunmuşdur.

Tərtər rayonun təbii resursları içərisində enerji ehtiyatını xüsusilə qeyd etmək istərdim. Qarabağ çayları içərisində Tərtərçayın energetika ehtiyatı və suvarma baxımından böyük əhəmiyyəti vardır. Bildiyimiz kimi, 2020 – ci il sentyabrın 27 – də Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin intensiv atəşə tutulmasına cavab olaraq əks – hücum əməliyyatı həyata keçirilmişdir. Oktyabr ayının 3 – də aparılan uğurlu əməliyyat nəticəsində Tərtər rayonunun Talış və Madagiz kəndləri işğaldan azad olunmuşdur. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 2020 – ci il oktyabrın 6 – da qəbul etdiyi qərara əsasən Madagiz kəndinin adı tarixi adı olan "Suqovuşan" ilə əvəz olunub. (Azərbaycan Respublikasının Qanunu, 07.10.2020)

3 may 2021 – ci ildə Azərbaycan Respublikası Prezidenti işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı Sərəncam imzalamışdır. Bu Sərəncama əsasən, Prezidentin ehtiyat fondundan Energetika Nazirliyinə 1 391 040,0 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmışdır (Sərəncam, 03.05.2021). Həmçinin, "Azərbaycan 2030: sosial – iqtisadi inkişafa dair Milli Prioritetlər" proqramında təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritetlərdən biri sayılır. Bu prioritetə əsasən, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməli, "yaşıl" texnologiyaların tətbiqi genişləndirilməli, iqtisadiyyatın bütün sahələrində alternativ və bərpa olunan enerji mənbələrinin payı artırılmalı və iqlim dəyişikliklərinə təsir azaldılmalıdır.(Sərəncam, 02.02.2021)

Oktyabrın 3 – də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tərtər rayonunda "Suqovuşan – 1" və "Suqovuşan – 2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışını edib. "Aəzərenerji" ASC – nin prezidenti Baba Rzayev "Suqovuşan – 1" stansiyasında ildə 13.8 milyon kVt/saat, "Suqovuşan – 2" stansiyasında isə 8.7 kVt/saat elektrik enerjisinin istehsal olunacağını bildirib.(Xalq qəzeti, 04.10.2021)

Tərtər rayonunun ərazisində olan Sərsəng və Suqovuşan su anbarları 1976 – cı ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmişdir. Ermənilərin işğalı zamanı bu su anbarları istismara məruz qalmışdır. Suqovuşan su anbarı Tərtərçay üzərində yerləşir və ümumi həcmi 5.86 milyon kubmetrdir. Bu su anbarının işğaldan azad olunması Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının suvarma suyu ilə təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Xatırladım ki, işğal dövründə mənfur düşmənlərimiz yayda suyu kəsir, rayon əhalisini, kəndlilərin əkin sahələrini susuz qoyur, qışda isə suyu açıb buraxmaqla süni daşqın yaratmaq, ərazilərimizi su altında qoymaq məqsədi güdürdülər. (Əsmər Qardaşxanova, 2022)

Rayon ərazisində şabalıdı, boz və çəmən – boz torpaqlar yayılmışdır. Burada yovşanlı – şoranotlu yarımsəhralara, seyrək kollu çəmənliklərə rast gəlinir. Meşələrin sahəsi 560 hektar təşkil edir. Rayonun meşələrində əsasən palıd, küknar, sərv kimi ağaclar bitir. Rayonun əkinə yararlı torpaqlarında əsasən dənli və dənli paxlalı bitkilər, pambıq, günəbaxan, meyvə və giləmeyvə,tərəvəz və s. əkilir. (Məmmədov,2017; 31).

**Cədvəl 2. Tərtər rayonunun kənd təsərrüfatı bitkilərinin əkin sahəsi**

| K/t bitkilərinin əkin sahəsi, ha | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Dənli və dənli paxlalı | 11726 | 11171 | 10883 | 9018 |
| O cümlədən buğda | 7546 | 7094 | 6057 | 5295 |
| Pambıq | 3300 | 3427 | 2981 | 3440 |
| Şəkər çuğunduru | 859 | 670 | 302 | 111 |

| | | | | |
|---|---|---|---|---|
| Dən üçün günəbaxan | 1445 | 2482 | 1852 | 2332 |
| Kartof | 487 | 400 | 377 | 413 |
| Tərəvəz | 1027 | 1161 | 1068 | 1211 |
| Bostan bitkiləri | 1 | - | - | - |
| Meyvə və giləmeyvə | 1398 | 1510 | 1580 | 1658 |
| Üzüm | 11.6 | 11.6 | 10.1 | 7.1 |

Qeyd. Azərbaycan Regionları ,2021. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, statistik məcmuə, səh.317

Cədvəl 2 – dən göründüyü kimi 2021 – ci ildə rayonda kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 25 573 hektar olmuşdur ki, bunun da 35.2 % - i dənli və dənli paxlalı bitkilərin, 13.5 % - i pambığın, 9.1 % - i dən üçün günəbaxanın , 6.5 % - i meyvə və giləmeyvənin, 4.7 % - i tərəvəzin, 1.6 % - i kartofun, 0.43 % - i şəkər çuğundurunun, 0.03 % - i isə üzümün payına düşür.




**Diaqram 1. Tərtər rayonunun kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, % - lə**

Dövlətimizin əsas iqtisadi prioritetlərindən biri qeyri – neft sektorunun inkişafıdır. Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş qərarlar və həyata keçirilmiş uğurlu siyasət nəticəsində ümumi daxili məhsulda qeyri – neft sektorunun payı əhəmiyyətli dərəcədə artmışdır. Aqrar sahəyə investisiya qoyulmasının təşviqi, güzəştli kreditlər, yeni texnologiyaların tətbiqi və s. bu sahənin inkişafına təkan vermişdir.

Qeyri – neft sektorunun inkişafına göstərilən diqqət nəticəsində kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına və istehsalının artımına nail olunur.

**Cədvəl 3. Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı**

| Məhsuldarlıq, s/ha | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Taxıl | 36.7 | 38.2 | 38.9 | 39.9 | 41.1 |
| O cümlədən buğda | 38.3 | 41.1 | 41.6 | 42.3 | 42.9 |
| Pambıq | 27.0 | 24.8 | 34.8 | 38.8 | 31.1 |
| Şəkər çuğunduru | 465 | 379 | 302 | 499 | 286 |
| Dən üçün günəbaxan | 23.4 | 25.3 | 26.1 | 26.2 | 26.4 |
| Kartof | 110 | 112 | 113 | 113 | 113 |
| Tərəvəz | 130 | 131 | 126 | 130 | 131 |
| Bostan bitkiləri | 171 | 11 | - | - | - |
| Meyvə və giləmeyvə | 85.2 | 92.6 | 94.1 | 100.7 | 92.7 |
| Üzüm | 126.6 | 308.6 | 309.7 | 339.6 | 90.1 |

Qeyd. Azərbaycan Regionları ,2021. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, statistik məcmuə, səh.317

Cədvəl 2 və 3 – ün müqayisəli təhlilindən görünür ki, 2020 – ci ildə əvvəlki illərə nisbətən kənd təsərrüfatı bitkilərinin əkin sahələrini azaltmaq hesabına məhsuldarlığın artımına nail olunmuşdur. Şəkər çuğunduru və üzümün əkin sahələrinə və məhsuldarlığına diqqət çəkmək istərdim. Göründüyü kimi şəkər çuğundurunun əkin sahəsi 2020 – ci ildə əvvəlki ilə nisbətən 2.2 dəfə azalıb, ancaq məhsuldarlıq 1.6 dəfə və ya 65 % artıb. Üzümün məhsuldarlığı 9 % artıb, əkin sahəsi isə 16.7 % azalaraq cəmi 10 hektar ərzidə əkilib. Xatırladım ki, XX əsrin 80 – ci illərinə qədər Qarabağ iqtisadi rayonu Respublikamızın əsas üzümçülük rayonlarından biri hesab olunurdu. 1985 – ci ildə keçmiş SSRİ tərəfindən qəbul olunmuş “ Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri” haqqında qərardan sonra ölkə iqtisadiyyatında üzümçülük və şərabçılıq kimi aparıcı sahələrə böyük zərbə vurulmuşdur. 2011 – ci ildə üzümçülüyün inkişafı məqsədilə Azərbaycan Respublikasının Prezidenti “2012 – 2020 – ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” haqqında Sərəncam imzalamışdır. (Sərəncam, 15.12.2011)

13 iyul 2017 – ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017 – 2022 – ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır (Sərəncam, 13.07.2017). Proqramın məqsədi pambıqçılığın inkişaf etdirilməsi, ixrac potensialının artırılması və kənd əhalisinin məşğulluğunun təmin edilməsidir.Tərtər rayonu 2019 – cu ildə pambığın məhsuldarlığına görə ölkə üzrə ən yüksək nəticəni göstərmişdir. 2021 – ci ildə ölkə üzrə istehsal olunan pambığın 3.7 % - i Tərtər rayonunun payına düşmüş və məhsuldarlığına görə digər rayonlar içərisində 4 – cü yerdə durmuşdur. (Azərbaycanın kənd təsərrüfatı, 2022: 587)

Tərtər rayonunda əkin sahələrinin 35.2 % - ni dənli və dənli paxlalı bitkilər tutur. Taxıl bitkisinin məhsuldarlığına görə rayon 2021 – ci ildə ölkə üzrə 6 – cı, Qarabağ iqtisadi rayonunda isə 2 – ci yerdə olmuşdur. (Azərbaycanın kənd təsərrüfatı,2022: 186 – 561)

**Tədqiqat metodu**

Bu məqalədə kəmiyyət metodlarından istifadə olunmuşdur. Müqayisəli tədqiqat metodundan istifadə olunaraq kənd təsərrüfatı bitkilərinin əkin sahəsi və məhsuldarlığı arasındakı əlaqələr müəyyən olunmuşdur. Təhlil metodologiyasından istifadə olunaraq ölkədə qəbul olunmuş Dövlət Proqramları təhlil olunmuş, araşdırılan rayona nə dərəcədə tətbiq olunması analiz edilmişdir.

**Nəticə**

Tərtər inzibati rayonun təbii şərait və təbii ehtiyat potensialının qiymətləndirilməsini, aparılan araşdırma və təhlilləri nəzərə alaraq aşağıdakı nəticələrə gəlmək olar:

- Rayon ərzisində qışı quraq keçən mülayim isti, yarımsəhra və çöl iqliminin hakim olması, əkinə yararlı torpaq sahələri kənd təsərrüfatı bitkilərinin yetişdirilməsinə əlverişli şərait yaradır. Əsasən də, belə əlverişli şəraitdə taxıl və pambıq bitkisi becərilir və ildən – ilə bu bitkilərin məhsuldarlığının artımına nail olunur;
- “Suqovuşan – 1” və “Suqovuşan – 2” Kiçik Su Elektrik stansiyalarının yenidənqurulması “Azərbaycan 2030: sosial – iqtisadi inkişafa dair Milli Prioritetlər” proqramında nəzərdə tutulan su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməlisinə nail olmaq, iqlim dəyişikliklərinə təsirin azaldılması yolunda müsbət nəticəsini göstərəcək;
- Suqovuşan su anbarının işğaldan azad olunması Tərtər, Bərdə, Goranboy, Ağdam, Yevlax, Ağcabədi rayonlarının torpaq sahələrinin suvarma suyu ilə təmin olunmasında mühüm əhəmiyyət kəsb edəcək;
- Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına nəzər saldıqda görürük ki, rayonda taxıl və pambıq bitkisinin inkişafı üçün əlverişli şərait var;
- Həmçinin rayonda üzüm bitkisinin inkişafına diqqət çəkmək istərdim. Azərbaycan Respublikası Prezidentinin “2012 – 2020 – ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”nın qəbul olunması haqqında Sərəncamının nəticəsi olaraq 2018 – 2020 – ci illərdə üzümün məhsuldarlığına nəzər salsaq görərik ki, rayonda üzümçülük inkişaf etdirilmişdir. Üzümçülüyün inkişafı ölkə iqtisadiyyatında üzümçülüyün payının artırılmasına, yeni iş yerlərinin açılmasına səbəb ola bilər. Rayonda üzümün az torpaq sahəsində əkilməsinə baxmayaraq yüksək məhsuldarlığa nail olunmuşdur. Üzümçülüyün inkişafına daha çox diqqət yetirməklə gələcəkdə daha çox inkişafa nail oluna bilər;
- Pambıqçılığın inkişafına dair Dövlət Proqramının icrası pambıq istehsalının və ixrac potensialının artmasına, pambıqçılıq ənənələrinin bərpa olunmasına, kənd əhalisinin məşğulluğunun artırılmasına şərait yaratmışdır;

**Ədəbiyyat**

Azərbaycan regionları (2021). Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, statistik məcmuə. Bakı

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Rəsmi internet saytı. stat.gov.az

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı (13.07.2017) . Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017 – 2022 – ci illər üçün Dövlət Proqramı. https://president.az/az/articles/view/24658

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. https://president.az

Azərbaycan Respublikasının Qanunu (06.10.2020). Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan adlandırılması haqqında. https://president.az/az/articles/view/42055

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı (13.12.2011). 2012 – 2020 – ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı. https://e-qanun.az/framework/22694

Azərbaycanın kənd təsərrüfatı (2022). Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, statistik məcmuə. Bakı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı (02.02.2021). Azərbaycan 2030: sosial – iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/az/articles/view/50474

Əsmər Qardaşxanova (2022). Hərb tariximizin Suqovuşan zəfəri məqaləsi. https://www.azerbaijan-news.az/az/posts/detail/herb-tariximizin-suqovusan-zeferi-1664659665

Məmmədov N.R (2017). Azərbaycan Respublikası Tərtər rayonunun tarixindən. Bakı: Avropa

Müseyibov M.A. (1998). Azərbaycanın fiziki coğrafiyası. Bakı: Maarif

Tərtər rayonu İcra Hakimiyyətinin rəsmi internet səhifəsi. http://terter-ih.gov.az/

Tərtərdə "Suqovuşan – 1" və "Suqovuşan – 2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub (04.10.2021). https://xalqqazeti.com/mobile/az/news/86555